

**“Beynəlxalq tələblərə uyğun qanunvericilik, ixtisaslaşmış institusional qurumların səmərəli fəaliyyəti və dövlət idarəçiliyində şəffaflığın təmin edilməsi antikorrupsiya siyasətimizin uğurlarıdır.”**

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

# SİYASİ İRADƏ KORRUPSİYAYA QARŞI MÜBARİZƏNİN ƏSAS ELEMENTİ KİMİ

Müasir dövrün ən böyük sosial bəlalarından olan korrupsiya və onun törətdiyi neqativ nəticələrə qarşı mübarizə Azərbaycan Respublikasında dövlət siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Təsadüfi deyil ki, 2014-cü ilin 14 may -14 noyabr tarixlərində olan müddət ərzində ölkəmizin Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə də korrupsiyaya qarşı mübarizə prioritet elan edilmiş və beynəlxalq səviyyədə bu sosial bəla ilə mübarizə əzmi bir daha təsdiq edilmişdir. Dövlət başçısı cənab İlham Əliyev tərəfindən mahiyyəti qabaqlayıcı və inzibati tədbirlərin birgə həyata keçirilməsi olan qətiyyətli siyasi iradənin ortaya qoyulması nəticəsində korrupsiyaya qarşı səmərəli mübarizənin aşağıdakı dörd sütün üzərində qurulması mümkün olmuşdur.

1. **Beynəlxalq standartlara cavab verən qanunvericilik bazasının yaradılması**
2. **Dövlət idarəetməsində şəffaflığın təmini**
3. **Ədalətli məhkəmə sisteminin formalaşdırılması**
4. **Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşdırılmış qurumların yaradılması**

## 1. BEYNƏLXALQ STANDARTLARA CAVAB VERƏN QANUNVERİCİLİK BAZASININ YARADILMASI

Korrrupsiyaya qarşı mübarizə sahəsində bütün beynəlxalq təşəbbüslərə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasına, habelə Avropa Şurasının müvafiq konvensiyalarına qoşulan Azərbaycan Respublikasında milli dövlətçilik ənənələrinə və müvafiq dünya standartlarının tələblərinə cavab verən müasir qanunvericilik bazası formalaşdırılmış, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə bir sıra əlavə və dəyişikliklər edilməklə yanaşı, "Korrupsiyaya qarşı mübarizə haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşməsinə qarşı mübarizə haqqında" qanunlar və bir sıra digər normativ-hüquqi aktlar qəbul edilmişdir.

Korrupsiyaya qarşı mübarizə tədbirlərinin daha sistematik, genişmiqyaslı və səmərəli həyata keçirilməsinin təmin edilməsi məqsədilə 2004-cü ildən hal-hazıradək siyasi iradənin ifadəsi olaraq 3 dövlət proqramı qəbul edilməklə uğurla icra edilmişdir.












## 2. DÖVLƏT İDARƏETMƏSİNDƏ ŞƏFFAFLIĞIN TƏMİNİ

Dövlət idarəetməsinə şəffaflığın təmin edilməsi və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması istiqamətində həyata keçirilmiş ən mühüm institusional tədbirlərdən biri kimi 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və onun nəzdində "ASAN xidmət" mərkəzlərinin yaradılması xüsusi qeyd edilməlidir. Mərkəzlərdə 10 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümümilikdə 300-dən çox müxtəlif növ xidmətlər təqdim olunur. Bütün bu xidmətlərin "vahid məkan" prinsipi əsasında həyata keçirilməsi xidmətlərin keyfiyyətlərin



artırılmasına və icra müddətlərinin qısaldılmasını təmin etmişdir. Artıq bir Azərbaycan brendi statusunu qazanmış bu sistem vətəndaşlara bürokratik əngəllərdən azad, tam şəffaf və mədəni xidmətin təmin olunması istiqamətində atılmış ən uğurlu modeldir. Yarandığı gündən keçən qısa müddət ərzində Səyyar ASAN (ASAN qatar və ASAN avtobus) – 1400 000 çox, ASAN kommunal – 460 000 çox, "Çağrı mərkəzinə" edilən müraciətlər – 2 000 000, "ASAN xidmət" mərkəzləri – 13 (5-i Bakıda,8-i regionlarda), "ASAN Kommunal" – 2 (Bakıda) həmçinin 21 milyondan çox müraciətin daxil olması, minlərlə vətəndaşa tam şəffaf prosedurlar əsasında müxtəlif sənədlərin verilməsi bir tərəfdən korrupsiyaya qarşı mübarizəyə Azərbaycan dövləti

tərəfindən verilən önəmin, digər tərəfdən isə bu sistemə Azərbaycan cəmiyyətinin inamının göstəricisidir. “ASAN” xidmət mərkəzlərin öz təşəbbüsləri ilə böyük könüllülər dəstəsinin çalışması ictimai xidmətlər sektorunda müsbət və qabaqcıl təcrübəyə malik yeni gənc nəslin yetişməsi işinə öz töfhəsini vermişdir.

2015-ci il Birləşmiş Millətlər Təşkilatının Dövlət Xidmətlərinin göstərilməsi sahəsində “ASAN xidmət” “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında ən yüksək 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub.

















## HƏYATA KEÇİRİLMİŞ TƏDBİRLƏR:

- Dövlət qurumları tərəfindən ölkə ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsi məqsədi ilə **www.e-gov.az** (“Elektron hökumət”) portalı;

- Dövlət orqanları tərəfindən tətbiq edilən rüsum və tariflər barədə məlumatlar almaq məqsədi ilə yaradılmış **“www.rusum.az”** saytı;

- Dövlət qurumlarının nümayəndələrinin və vətəndaşların münasibətlərinin etik davranış çərçivəsində tənzimlənməsinə dəstək vermək, bu sahədə maarifçilik və məlumatlandırma məqsədi ilə yaradılmış **“www.etika.az”** saytı;

- Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin **“www.asan.gov.az”** saytı.

## 3. ƏDALƏTLİ MƏHKƏMƏ SİSTEMİNİN FORMALAŞDIRILMASI

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra öz məhkəmə və hüquq sistemini qısa müddət ərzində demokratik prinsiplər əsasında tamamilə yenidən qurmuşdur. Belə ki, müvafiq dünya standartlarının tələblərinə cavab verən üç pilləli məhkəmə sistemi formalaşdırılmış, habelə ən mütərəqqi təcrübəyə əsaslanmaqla məhkəmə hakimiyyətinin tam müstəqil özünüidarə orqanı – Məhkəmə Hüquq Şurası yaradılmış və ötən müddət ərzində Şura tərəfindən məhkəmə sisteminin müasirləşdirilməsi,ədalət mühakiməsinin səmərəliliyinin artırılması, hakimlərin fəaliyyətinin qiymətləndirilməsi və tədrisinin müasir tələblər səviyyəsində təşkili istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Həmçinin, aparılmış məhkəmə-hüquq islahatları nəticəsində ölkəmizdə hakimliyə namizədlərin ən mütərəqqi və şəffaf üsullarla seçilməsi qaydası tətbiq olunmuşdur.



## 4. KORRUPSİYAYA QARŞI MÜBARİZƏDƏ İXTİSASLAŞDIRILMIŞ QURUMLARIN YARADILMASI

“Korrupsiyaya qarşı mübarizə” haqqında Qanunun 4-cü maddəsinə əsasən bütün dövlət orqanları və vəzifəli şəxslər səlahiyyətləri çərçivəsində korrupsiyaya qarşı mübarizəni həyata keçirirlər. Bununla yanaşı, Azərbaycanda 2 ixtisaslaşdırılmış antikorrupsiya qurumu fəaliyyət göstərir.

***4.1. Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya:*** 13 yanvar 2004-cü il tarixli “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanuna əsasən yaradılmaqla, səlahiyyətləri Azərbaycan Respublikasının 3 may 2005-ci il tarixli qanunu ilə təsdiq edilmiş Əsasnamə ilə müəyyən olunur. Komissiya korrupsiyaya qarşı mübarizə sahəsində dövlət siyasətini formalaşdırır, korrupsiyaya qarşı mübarizənin vəziyyətini və səmərəliliyini təhlil edir, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları toplayır, ümumiləşdirir və müvafiq dövlət orqanlarına təkliflər verir. Eyni zamanda, bu sahədə dövlət orqanları və digər qurumlarla əməkdaşlıq edir. Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir və fəaliyyət göstərir. Komissiyanın 5 üzvü Azərbaycan Respublikası Prezidenti, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilir.



Komissiya öz fəaliyyətini qanunvericilik, icra və məhkəmə hakimiyyətləri ilə qarşılıqlı əlaqədə qurur və korrupsiyaya qarşı mübarizənin vəziyyəti barədə Azərbaycan Respublikasının Prezidentini, Azərbaycan Respublikası Milli Məclisini və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsini mütəmadi olaraq məlumatlandırır.

***4.2. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi:*** Azərbaycanda qabaqlayıcı və cəza tədbirlərinin vəhdəti korrupsiyaya qarşı mübarizənin fundamental prinsipi olması, institusional islahatlarda da öz əksini tapmışdır. Ölkənin mövcud hüquq sistemi, prokurorluq orqanlarının dövlət orqanları arasında yeri və rolu, onun yerinə yetirdiyi funksiyalar korrupsiya ilə bağlı cinayətlərin təqibi üzrə ixtisaslaşmış orqan - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yaradılmasında başlıca faktorlardan olmuşdur.




Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 mart tarixli Sərəncamı ilə yaradılmaqla həmin dövrdən ötən müddət ərzində fəaliyyəti və strukturu daim təkmilləşdirilmişdir. Korrupsiyaya qarşı mübarizənin aparılmasının bütün hüquq mühafizə orqanlarının və dövlət qurumlarının prioritet vəzifəsi olmasını nəzərə alaraq Baş İdarə tərəfindən yalnız mürəkkəb və çoxepizodlu korrupsiya hüquqpozmaları və cinayətləri ilə əlaqədar cinayət təqibi həyata keçirilir. Korrupsiya hüquqpozmaları barədə müraciətlərin təxirəsalınmadan çatdırılması və operativ baxılmasının təmin edilməsi məqsədi ilə Baş İdarənin nəzdində istənilən

telekommunikasiya şəbəkəsindən zənglərin ödənişsiz qəbuluna imkan verən və 24 saat ərzində fasiləsiz fəaliyyət göstərən “161 – Qaynar xətt” əlaqə mərkəzi yaradılmışdır. Xüsusi qeyd edilməlidir ki, 2011-ci ildə Baş İdarəyə korrupsiyaya qarşı mübarizə sahəsində istintaq və təhqiqat funksiyası ilə yanaşı Müstəqil Dövlətlər Birliyi məkanında, habelə Azərbaycan prokurorluğunun tarixində ilk dəfə olaraq əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyəti də verilmişdir.

“Prokurorluq haqqında” və “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi haqqında 14 fevral 2014-cü il tarixli qanunlar və həmin qanunların tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adlanmış və Baş İdarə Prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir.









Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli Fərmanı ilə AzərbaycanRespublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında”Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilərək Baş İdarə əməkdaşların ştat vahidi 100-dən 140-a çatdırılmışdır.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin səmərəli fəaliyyətini şərtləndirən əsas amillər aşağıdakılardır:

- Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası ilə sıx və işgüzar əlaqələrin qurulması və məlumat mübadiləsinin həyata keçirilməsi;
- Digər hüquq mühafizə orqanları və dövlət qurumları ilə qarşılıqlı əlaqələrin qurulması;
- Vətəndaş cəmiyyəti instututları ilə işgüzar əlaqələrin qurulması;
- Beynəlxalq təşkilatlarla səmərəli beynəlxalq əməkdaşlığın həyata keçirilməsi.

## KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏLAQƏLƏR

Korrupsiya mahiyyəti etibarı ilə transmilli və mürəkkəb bir fenomen olduğundan ona qarşı mübarizə səylərin birləşdirilməsini tələb edir. Azərbaycan Respublikası bu sosial bəla ilə mübarizədə beynəlxalq əməkdaşlığa xüsusi əhəmiyyət verməklə aşağıdakı nüfuzlu beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir.

UNODC United Nations Office on Drugs and Crime

BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC)

GRECO Group of States against Corruption Groupe d'États contre la corruption

Avropa Şurasının Korrupsiyaya qarşı mübarizə aparan Dövlətlər Qrupu (GRECO)

IAP International Association of Prosecutors

Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP)

IACA INTERNATIONAL ANTI-CORRUPTION ACADEMY

Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA)

IAACA International Association of Anti-Corruption Authorities

Beynəlxalq Antikorrupsiya Qurumları Assosiasiyası (IAACA)

OECD

İqtisadi əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD)

EPAC EUROPEAN PARTNERS AGAINST CORRUPTION

Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC)

EUROPEAN UNION COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

Avropa Şurası və Avropa Birliyi (AŞ və AB)

Economic Cooperation Organization

İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT)

BSEC ORGANIZATION of the BLACK SEA ECONOMIC COORPERATON

Qara Dəniz Əməkdaşlıq Təşkilatı (QDİƏT)

ORGANIZATION FOR DEMOCRACY GUAM AND ECONOMIC DEVELOPMENT

Demokratiya və İqtisadi İnkişaf naminə təşkilat (GUAM)